# İkinci Qarabağ müharibəsi xalqımızın şanlı tarixidir



***Müzəffər Ali Baş Komandan, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 27-də Anım Günü ilə əlaqədar xalqa müraciət edib. Dövlətimizin başçısı şanlı Vətən müharibəsində Azərbaycan xalqının əldə etdiyi möhtəşəm qələbədən söz açarkən bildirdi: "Biz Birinci Qarabağ müharibəsindəki məğlubiyyətlə barışmadıq, güc topladıq, bütün gücləri səfərbər etdik, ordumuzu gücləndirdik, ölkə iqtisadiyyatını gücləndirdik, ölkəmizin nüfuzunu qaldırdıq və öz tarixi missiyamızı şərəflə yerinə yetirdik. Biz düşməni torpaqlarımızdan qovduq və ədaləti, beynəlxalq hüququ bərpa etdik. Biz milli ləyaqətimizi bərpa etdik. Bu gün Azərbaycan xalqı müzəffər xalq kimi yaşayır. Bu gün Azərbaycan dövləti qalib dövlət kimi yaşayır. Biz bundan sonra müzəffər xalq və qalib dövlət kimi əbədi yaşayacağıq."***

**Azərbaycan Prezidentinin xalqa müraciəti ölkə ictimaiyyəti tərəfindən dərin razılıq hissilə qarşılanmışdır. Milli Məclisin komitə sədri Sadiq Qurbanov bu barədə fikirlərini bizimlə bölüşərkən dedi:**

– 2020-ci ilin sentyabrın 27-də müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında rəşadətli Azərbaycan Ordusu Ermənistanın növbəti hərbi təxribatlarına cavab olaraq Qarabağda bütün cəbhə boyu əks-hücuma keçərək, düşmənin müdafiə xəttini yardı və işğal altından olan ərazilərimizi yağı düşməndən azad etməyə başladı.

Azərbaycan Prezidenti İlham Əliyevin diplomatik məharəti, prinsipiallığı, dəmir iradəsi və rəşadətli ordumuzun müqayisə edilməz qəhrəmanlığı, igidliyi, qorxmazlığı nəticəsində 2020-ci il 8 noyabrında Azərbaycanın qədim mədəniyyət paytaxtı Şuşa şəhəri 28 il 6 aydan sonra düşmən işğalından azad olundu və burada Azərbaycan Bayrağı qaldırıldı. Bununla da, yağı düşmənin beli qırıldı.

Şuşanın azad olunması müharibədə həlledici nöqtə idi və Ermənistan kapitulyasiya aktını imzalamağa məcbur oldu. Təsadüfi deyil ki, məhz həmin gün Azərbaycan tarixinə Zəfər Günü kimi həkk olundu. Lakin bütün bu qazanılan parlaq tarixi qələbələr şəhid qardaşlarımızın qanı və igid qazilərimizin sağlamlığı bahasına başa gəldi. Bu gün hər birimiz şəhidlərimizə rəhmət oxuyur, qazilərimizin tezliklə sağalmalarını diləyirik.

Azərbaycan Prezidenti cənab İlham Əliyevin 2 dekabr 2020-ci il sərəncamına əsasən Vətən müharibəsində qəhrəmancasına döyüşmüş, ölkəmizin ərazi bütövlüyü yolunda canlarını fəda etmiş əsgər və zabitlərimizə, bütün şəhidlərimizə dərin ehtiram əlaməti olaraq, bu ildən sentyabrın 27-i Azərbaycanda Anım Günü kimi qeyd edilir. Dünən paytaxt Bakıda və bütün ölkə ərazisində keçirilən kütləvi tədbirlər Azərbaycan xalqının qəhrəman şəhid və qazilərinə necə yüksək dəyər verdiyini bir daha nümayiş etdirdi.

Azərbaycan Prezidenti cənab İlham Əliyev xalqa müraciətində demişdir: "Beləliklə, Azərbaycan öz ərazi bütövlüyünü bərpa etdi. Biz müharibəni hərbi-siyasi yollarla həll etdik, müharibə arxada qaldı, Dağlıq Qarabağ münaqişəsi də tarixdə qaldı. Azərbaycanda "Dağlıq Qarabağ" adlı inzibati ərazi mövcud deyil və əgər kimsə "Dağlıq Qarabağ" adlı ölünü diriltmək istəyirsə, onu öz ərazisində diriltsin, öz ərazisində "Dağlıq Qarabağ" adlı qurum yaratsın, respublika yaratsın, cəmiyyət yaratsın. Biz də onu tanıyarıq, ancaq Azərbaycanda yox! Bu məsələ öz həllini tapdı. Bunu mən deyirəm - Azərbaycanın Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı. Hər kəs bu sözlərlə hesablaşmalıdır və hesablaşacaqdır".

İkinci Qarabağ müharibəsi bizim şanlı tariximizdir. Azərbaycanda regionda yeni reallıqlar yaratmışdır. Dövlətimizin başçısının vurğuladığı kimi, indi xalqımız işğaldan azad edilmiş ərazilərimizi yenidən qurmaqla məşğuldur, o torpaqlara artıq həyat qayıdır, insanlar qayıdır. Qarabağ bizimdir! Qarabağ Azərbaycandır!

***Söhbəti qələmə aldı:***
***M.HACIXANLI,***
***"Xalq qəzeti"***

Xalq qəzeti.-2021.- 28 sentyabr.- S.11.